AZƏRBAYCAN www.azerbaijan-news.az

Jurnalist həmkarlarımız

# Sözə həsr olunan ömür

Qırx ildən çox onunla respublikanın ən qocaman mətbu orqanlarından biri - 95 yaşlı "Şəki" qəzetində çiyin-çiyinə çalışmışıq.

Keçən əsrin 60-cı illərində insanın kosmosa ilk uçuşu ilə əlaqədar "Azərbaycan pioneri" qəzetinin məktəblilər arasında keçirdiyi şeir və mahnı müsabiqəsində Şəki şəhərindəki 4 nömrəli orta məktəbin ibtidai sinif şagirdi Bəşarət Süleymanov da "Doğma Vətən, nə gözəlsən!" şeiri ilə iştirak etdi. Həmin şeir o zaman hətta qəzetdə də çap olundu.

İlk yazısından ruhlanan Bəşarət sonralar yerli "Şəki fəhləsi" ("Şəki"), "Azərbaycan gəncləri", "İnşaatçı" və digər respublika qəzetlərində vaxtaşırı çıxış etməyə başladı. 1968-ci ildə orta məktəbi başa vuranda isə artıq onun fikri qəti idi: jurnalist olmaq. Bu arzu ilə sənədlərini Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə verdi. Birinci il müsabiqədən keçmədi.

Lakin bu, müstəqil həyatda ilk addımlarını atan gələcək jurnalisti ruhdan salmadı. Qəbul imtahanlarına daha da ciddi hazırlaşaraq 1969-cu ildə yüksək balla BDU-nun jurnalistika fakültəsinin tələbələri sırasına qəbul olundu.

Oxuduğu illərdə Nəsir İmanquliyev kimi görkəmli alimlərdən dərs aldı, ölkənin mətbu orqanları və nəşriyyatlarla əməkdaşlıq etdi. O, "Ulduz" jurnalının nəşri və fəaliyyəti" adlı diplom işini müdafiə edərək universiteti müvəffəqiyyətlə bitirdi. 1974-cü ildə təyinatla yerli "Şəki fəhləsi" ("Şəki") qəzetinə işləməyə göndərildi. Həmin ilin sentyabr ayından redaksiyanın məktublar şöbəsinin müxbiri kimi işə başlayan Bəşarət 5 aydan sonra şöbə müdiri, 1981-ci ildə qəzetin məsul katibi vəzifələrinə təyin edildi. Bəşarət həmin il o vaxtkı SSRİ Jurnalistlər İttifaqına üzv qəbul olundu.

B.Süleymanovun biliyi, bacarığı, özünə və ətrafdakılara qarşı prinsipiallığı, eyni zamanda, son dərəcə səmimiliyi onu kollektivə və oxucularına sevdirdi. Həmkarları və ictimaiyyət arasında hörmət qazanan qələm dostumuz B.Süleymanovun fəaliyyəti layiqincə qiymətləndirildi. O, "Şəki" qəzetinin 60 illik yubileyi ilə əlaqədar 1981-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin fəxri fərmanına, "Qızıl qələm" mükafatına layiq görüldü.

1986-cı ildə Azərbaycan KP Mərkəzi Komitəsinin təşəbbüsü ilə respublikamızın kütləvi informasiya vasitələrini təmsil edən jurnalistlərdən bir qrupu Moskvadakı Mətbuat İşçilərinin İxtisasını Artıran Ümumittifaq İnstitutuna iki aylıq kursa göndərilir. Onların sırasında "Şəki" qəzetinin məsul katibi B.Süleymanov da vardı. Keçmiş Sovetlər İttifaqının müxtəlif bölgələrindən gəlmiş mətbuat işçilərinin ixtisasını artırdığı həmin kurs gənc jurnalistin fəaliyyətində silinməz izlər buraxır. B.Süleymanov 1993-cü ildə "Şəki" qəzetinin redaktor müavini təyin edilir.



1990-cı illərdə Qarabağ müharibəsinin qızışması bütün yaradıcı ziyalılar kimi B.Süleymanovun da fəaliyyətinə ciddi təsir etmişdir. O illərdə 200-dən çox şəkili gənc şəhid olmuş və itkin düşmüşdü. Həmin qəhrəmanlardan bəhs edən ("Şəki qartalları" "Şəki şəhidləri haqqında xatirə toplusu) kitabının müəlliflərindən biri də məhz B.Süleymanovdur. Eləcə də "Şəki müstəqillik illərində" kitabının müəllifləri sırasında da B.Süleymanovun adı var.

Bəşarət müəllim yeni fəaliyyətə başlayan gənc jurnalistlərin yetişməsi üçün öz bilik və təcrübəsini əsirgəməmişdir. Şəkinin yaradıcı ziyalılarından Mais Səlimin "Mən hardan biləydim", Almaz Məmmədovanın "Həsrət dolu ömür" kitabları da onun redaktorluğu ilə işıq üzü görmüşdür.

2001-ci ildə ciddi maliyyə çətinlikləri ilə əlaqədar Şəki mətbəəsi fəaliyyətini dayandırarkən "Şəki" qəzetinin əməkdaşları da qeyri-müəyyən müddətə "məzuniyyətə" buraxılmışlar. B.Süleymanov jurnalistlik fəaliyyətini digər mətbu orqanlarda, ictimai-siyasi qəzet olan "Zaman"da xüsusi müxbir kimi davam etdirmişdir.

2002-ci ilin may ayında Türkiyənin "Çağ Öyrətim" şirkətinin Azərbaycan-Türkiyə Özəl Liseyləri arasında ilk dəfə olaraq Şəki liseyində çoxtirajlı "İşıqlı yol" qəzeti fəaliyyətə başladı. Liseyin müdiri Yaşar Çakırın təsisçiliyi, mətbuat dərnəyinin rəhbəri Bəşarət Süleymanovun redaktorluğu ilə "Zaman" mətbəəsində rəngli, 8 səhifə, 500 nüsxə həcmində nəşr olunan həmin qəzetdə Şəkinin təhsil həyatı öz əksini tapmışdı.

2004-cü ilin dekabrında "Region Şəki" qəzetində çalışan B.Süleymanov 2005-ci ilin yanvarından çoxtirajlı "Şəki təhsili" qəzetini təsis etdi. "Şəki təhsili" ulu öndər Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" kəlamını özünə deviz seçərək cəmiyyətimizin həyatı üçün çox mühüm sahə olan təhsilə mətbu sözün gücü ilə işıq salmağı qarşısına məqsəd qoydu, milli mətbuatımızın prinsiplərini və ənənələrini əsas tutaraq daim yaradıcılıq axtarışında oldu.

2007-ci ildə "Şəki təhsili" qəzetinin 2 yaşı qeyd edildi. Müxtəlif təhsil ocaqları rəhbərlərinin orada təbrikləri öz əksini tapdı.

2007-ci il oktyabrın 14-də B.Süleymanov ailəvi avtomobil qəzası nəticəsində 30 illik ömür-gün yoldaşı, orta məktəb müəllimi Ofeliya xanımı itirdi. Dəhşətli qəzada oğlu və qızı da ağır xəsarət alsa da, Bəşarət müəllim sarsılsa da, yenidən özündə təpər tapa bildi. Onun baş redaktorluğu ilə "Şəki təhsili" qəzeti fəaliyyətini davam etdirdi. B.Süleymanov həm də 2008-ci ildən Şəkinin tarixini, mədəniyyətini respublika miqyasında təbliğ edən ictimai-siyasi, elmi-kütləvi publisistik "Gələrsən-görərsən" jurnalında xüsusi müxbir kimi əməkdaşlıq etdi.

B.Süleymanov uzun illər Azərbaycan Jurnalistlər Birliyi Şəki təşkilatına sədrlik etmişdir. 2009-cu ildə baş redaktoru olduğu "Şəki təhsili" qəzeti Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən media-mətbuat sahəsində "İlin qalibi" mükafatına layiq görülmüşdür.

2012-ci ildən Şəki Şəhər Təhsil Şöbəsi rəhbərliyinin təşəbbüsü ilə "Şəki təhsili" qəzeti fəaliyyətini həmin şöbənin mətbu orqanı kimi davam etdirməyə başlamışdır. Təhsilin inkişafına, eləcə də mediaya göstərilən dövlət qayğısına əməli cavab verən "Şəki təhsili"nin məzmunu və poliqrafik keyfiyyəti daha da yaxşılaşmış, qəzetin işıq üzü görən rəngli xüsusi buraxılışları oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

2014-2015-ci dərs ilində Şəki Şəhər Təhsil Şöbəsinin yeni istifadəyə verilmiş inzibati binasında "Şəki təhsili" qəzeti redaksiyası üçün lazımi şərait yaradılmışdır. Böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsində pedaqoji kollektivlər tərəfindən görülən işləri müntəzəm və məzmunlu işıqlandırdığına görə və Azərbaycan milli mətbuatının 140, sözügedən qəzetin 10 illiyi münasibətilə "Şəki təhsili" qəzetinin baş redaktoru Bəşarət Süleymanov Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Şəki Şəhər Təhsil Şöbəsinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Sadə, təvazökar, zəhmətkeş, yaradıcı ziyalı olan B.Süleymanov həm də nümunəvi ailə başçısıdır. İki qızı, bir oğlu, nəvəsi var. Həyatının 40 ildən çoxunu mətbuata həsr edən qələm dostumuz Bəşarət Süleymanovun 65 yaşı tamam olur. Lakin o, yenə də gənclik həvəsi ilə çalışır, ömrünün mənasını xalqa, cəmiyyətə, yetişməkdə olan nəslin təlim-tərbiyəsinə xidmətdə görür. Belə yerdə deyirlər ki, "yaşın nə fərqi var..." Qələm dostumuzu bu münasibətlə təbrik edir, möhkəm cansağlığı, çətin, lakin şərəfli işində bundan sonra da uğurlar arzulayırıq.

***Akif SALAM,***
***"Şəki" qəzetinin baş redaktoru,***
***əməkdar jurnalist***